# QƏRBİ AZƏRBAYCAN BİZ QAYIDACAĞIQ!

# Azərbaycan təhsili Qərbi Azərbaycana da qayıdacaq

## Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının təbliğində gənc müəllimlərin roluna həsr olunmuş forum keçirilib

İyunun 25-də Elm və Təhsil Nazirliyinin dəstəyi və Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə "Mirasa sahibik: Qərbi Azərbaycan Konsepsiyasının təbliğində gənc müəllimlərin rolu" adlı forum keçirilib.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirilən forumda dövlət rəsmiləri, millət vəkilləri, Qərbi Azərbaycan İcmasının üzvləri, təhsil ictimaiyyətinin nümayəndələri və 300-dən çox müəllim iştirak edib.

Forum Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.






Firudin QURBANOV

* "Qərbi Azərbaycana qayıdışla bağlı gənclərdə lazımi bilik formalaşmalıdır. Qısa zamanda Qərbi Azərbaycanla bağlı bütün həqiqətlər dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Necə ki, Qarabağda quruculuq işləri gedir, təbii ki, Qərbi Azərbaycanda da quruculuq işləri görüləcək. Hazırda Qarabağda 14 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Artıq Qarabağ Universitetində mindən çox tələbə təhsil alır. 44 günlük Vətən müharibəsində biz qələbə qazandıq, torpaqlarımız geri qayıtdı, quruculuq işləri başladı. Bütün bunlar Qayıdış Konsepsiyamızı zəruri etdi.
* Biz xalq olaraq tarixdən dərs çıxarmalıyıq. Azərbaycan təhsili Qərbi Azərbaycana da qayıdacaq. Qərbi Azərbaycanda Azərbaycan dilində tədris aparılan 300-ə yaxın məktəb fəaliyyət göstərirdi. Bu gün çap olunan "Qərbi Azərbaycan məktəbləri" kitabında həmin dövrdə fəaliyyət göstərən on böyük məktəb haqqında maraqlı faktlar yer alır.
* Gənclərin yalnız savadlı olması kifayət etmir, onlar savadlı olmaqla yanaşı, həm də vətənpərvər yetişdirilməlidirlər. Vətənpərvərlik cəmiyyətdə formalaşdırılmalıdır. Bu istiqamətdə müəllimlərin, xüsusilə gənc müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Gənclər elə yetişdirilməlidir ki, dünyada baş verən istənilən dəyişikliyə hazır olsunlar. Müəllimlər vətənpərvərliyin formalaşdırılmasında cəmiyyət üçün bələdçi rolunu oynamalıdır. Bu mənada gənc müəllimlərin rolu xüsusilə əhəmiyyətlidir.

Forumda çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı siyasi xətt və yanaşmasının gənclərə aşılanması müsbət və effektiv addımdır. Firudin Qurbanov vurğulayıb ki, Qayıdış konsepsiyası yalnız yaşayış infrastrukturuna, əvvəlki həyat şəraitinə qayıtmaq deyil, həm də tarixi yaddaşın, mədəni irsin qorunması deməkdir.

Təhsildə milli yaddaşın formalaşdırılması məqsədilə şagirdlər arasında keçirilən maarifləndirmə işlərinə toxunan nazir müavini bildirib ki, təhsilalanlar Azərbaycanın əzəli torpaqları haqqında müfəssəl məlumatlara sahib olmalı, onu gələcək nəsillərə ötürməlidirlər. Gənclər Qərbi Azərbaycana Qayıdış missiyasının əsas qüvvələridir. Təhsil yalnız bilik və bacarıqlardan ibarət olmamalı, həm də şəxsiyyəti, vətəndaşı formalaşdıran, cəmiyyəti birləşdirən mənəvi və əxlaqi dəyərləri də əhatə etməlidir. Şagirdlərin tərbiyəsi anlayışı elə genişləndirilməlidir ki, bu tərbiyə prosesi vətənpərvərlik və vətəndaşlıq hissinin, xalqın mədəni irsinə və ənənələrinə ehtiramlı münasibətin formalaşdırılmasına yönəlsin. Tarixi vətənpərvərlik kökləri nə qədər dərin olsa, xalq vətənpərvərliyinin təməli də bir o qədər güclü və möhkəm olar.







Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli bildirib ki, bu gün Qərbi Azərbaycana qayıdış ideyası tarixi ədalətin bərpasını hədəfləyən bir ideyadır. Qayıdış ideyası sadəcə bir arzudan ibarət deyil, bu, milli iradənin və tarixi ədalətin təntənəsidir. Əziz Ələkbərli qeyd edib ki, bu ideyanın həyata keçirilməsində təhsil müəssisələrinin üzərinə böyük vəzifə düşür. Biz milli dəyərlərə sahib bir gənc nəsil yetişdirməliyik. Çünki milli dəyər sahibi olmayan insanın nə özünə, nə də cəmiyyətə faydası olar. Bu baxımdan gənc müəllimlərin rolu xüsusilə önəmlidir.

Çıxış edən Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Pərvinə Qədimova da öz növbəsində Qərbi Azərbaycana Qayıdış Konsepsiyası istiqamətində gənc müəllimlərin üzərinə düşən vəzifələrdən danışıb və planlaşdırılan layihələrə toxunub.

Rəsmi açılış mərasimindən sonra forum öz işini panellərlə davam etdirib.

"Ali təhsil və elmi tədqiqatlarda Qərbi Azərbaycan" mövzusuna həsr olunmuş I panelə moderatorluğu ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə edib. Müzakirələrdə Milli Məclisin Gənclər və idman komitəsinin və QAİ-nin Gənclər Şurasının sədri Şahin İsmayılov, QAİ-nin Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü Nazim Mustafa və Elm üzrə prezident mükafatçısı Elnur Həsənov iştirak ediblər.

II panel "Ümumi təhsildə Qərbi Azərbaycan" mövzusuna həsr olunub. Moderator qismində çıxış edən Pərvinə Qədimova ilə yanaşı paneldə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu, Təhsil İnstitutunun direktor müavini Fuad Çıraqov, Bakı şəhəri 281 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Flora Osmanova və 163 nömrəli tam orta məktəbin tarix müəllimi Ramil Tanrıverdi çıxış ediblər.

Tədbir bədii hissə ilə davam edib.

Forumun yekununda tədbirin qətnaməsi səsləndirilib və kollektiv foto çəkdirilib.

## "Qərbi Azərbaycana qayıdış" olimpiadasının qalibləri mükafatlandırılıblar

İyunun 25-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirilən "Mirasa sahibik: Qərbi Azərbaycan Konsepsiyasının təbliğində gənc müəllimlərin rolu" adlı forum çərçivəsində "Qərbi Azərbaycana qayıdış" olimpiadasının qalibləri mükafatlandırılıblar.

Tədbirdə sözügedən olimpiada haqqında videoçarx nümayiş etdirilib və müsabiqənin cari il üzrə qaliblərinə mükafatlar təqdim olunub. Bildirilib ki, cari ildə keçirilən olimpiadanın final turunda ən yüksək nəticə göstərən 18 iştirakçı qalib adını qazanıb. Qaliblərdən 3 nəfər I, 6 nəfər II, 9 nəfər isə III yerə layiq görülüb.

Qeyd edək ki, IX-X sinif şagirdləri arasında keçirilən olimpiadanın təşkilində əsas məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etməkdən ibarətdir. Olimpiada Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Qərbi Azərbaycan İcmasının birgə tərəfdaşlığı ilə keçirilib.

**Yetər KƏRİMLİ**